Tarix və onun problemləri, №4 2009

AYTƏN MEHDIYEVA
*tarix elmləri namizədi, dosent*

# TÜRKİYƏNIN ŞƏRQINDƏ YERLƏŞƏN QALALAR

Qədim insan məskənlərindən sayılan Türkiyənin Anadolu adlanan Asiya hissəsi zəngin tarixə malikdir. Çox zaman bu torpaqları bir çox mədəniyyətlərin tükənməz xəzinəsi adlandırırlar. Türkiyə ərazisindən əldə olunan maddi mədəniyyət abidələrinin təhlili əsasında bu ərazidə e.ə. VII-IV minilliklərdə formalaşan mədəniyyətlərin qədim Yunanıstan, Makedoniya və Bolqarıstan ərazilərində yaranan mədəniyyətlərə güclü təsiri olmuşdur. C.Mellart əldə olunan məlumatlar əsasında Aralıq, Egey və Mərmərə dənizi sahillərində oxşar mədəniyyətlərin yaranmasının erkən Anadolu məskənlərinin meydana gəlməsinin nəticəsi olduğunu və ya Anadoluda formalaşan mədəniyyətlərin avropalılar tərəfindən mənimsənilməsi fikrinə tam aydınlıq gətirməmişdir. (7, s. 106-115).

Qədim Şərq sivilizasiyasının əsas mərkəzlərindən hesab olunan Cənubi İkiçayarasında sivilizasiyanın yaranması digər mədəniyyətlərə öz təsirini göstərmişdir. Eyni zamanda Şumerdən kənarda yerləşən Şimali İkiçayarası, Suriya, Kiçik Asiya mədəniyyətləri özünəməxsus inkişaf xüsusiyyətlərinə malik olmuşdur. Dövlət tərəfindən nizamlanan suvarma sisteminin əvəzinə dəmyə əkinçiliyinin üstün olması, hökmdar və məbəd bölməsinə nisbətən icma bölməsinin aparıcı mövqe tutması, icma strukturları daxilində bölgü sisteminin uzun müddət saxlanılması qeyd olunan xüsusiyyətlərdən hesab oluna bilər. E.ə.III – II minilliklərdə Cənubi İkiçayarası ətraf rayonlarda yerləşən mədəniyyətlərlə üzvi şəkildə əlaqələnmişdir. İkiçayarasında mövcud olan mədəniyyətlərin şərq ölkələri ilə əlaqələri tarixini araşdırdıqca mühüm siyasi və iqtisadi hadisələrin vahid bir sistem təşkil etdiyinin şahidi oluruq. Ön Asiya ölkələrinin iqtisadi baxımdan bir-birinə qarşılıqlı təsiri beynəlxalq ticarətin inkişafına səbəb olurdu.

Beynəlxalq ticarətin inkişafını şərtləndirən əsas səbəblərdən biri Ön Asiya əyalətləri arasında əmək bölgüsünün olması hesab edilir. Bu bölgünün meydana gəlməsi erkən neolit dövrü icmalarında müəyyən məhsulların kənardan gətirilməsi ilə əlaqələndirilir. E.ə.IV-III minilliklərdə bu sistem qəti şəkildə möhkəmlənmişdir. Kiçik Asiyada erkən əkinçi tayfaların məskunlaşması təxminən bu dövrə təsadüf etmişdir. Çatal-Hüyuq mədəniyyətinin əsas elementləri Anadolunun cənub-qərbində Hacılar və Konya yaxınlığında Mersin mədəniyyətlərində əksini tapmışdır (6,s.23) E.ə. III minilliyin birinci yarısında Kiçik Asiyada müəyyən inkişaf ənənələrinə malik bir neçə tarixi-mədəni əyalətlər formalaşmışdır. Onların əksəriyyətini iki ümumi xüsusiyyət birləşdirirdi. Bunlar möhkəmləndirilmiş, öz dövrünə görə güclü müdafiə tikililərinə malik mərkəzlərin yaranması və sənətkarlığın inkişaf etməsi olmuşdur. Maraqlıdır ki, e.ə.III minilliyin sonlarında Kiçik Asiyada müşahidə olunan sürətli inkişafın birdən-birə qarşısı alınmış, yarımadanın müəyyən hissəsi boşalmışdır. Güman olunur ki, bu hadisə Balkan yarımadasından qədim Anadolu və ya hett-luvi dillərində danışan hind-avropa tayfalarının miqrassiyası ilə bağlı olmuşdur. Digər bir mülahizəyə görə, dəyişikliklər yerli əhalinin məşğuliyyət növünün dəyişməsi ilə əlaqədar idi (6, s.39-40). Bununla yanaşı, e.ə.II minillikdə Anadolu ərazisində Bəycəsultan və Əlişir kimi güclü müdafiə divarlarına malik şəhər-dövlətlər fəaliyyət göstərirdi.

E.ə.II minillikdən türklərin (səlcuq və osmanlı) Kiçik Asiyaya gəlişinə qədər bu ərazidə hind-avropa dillərində danışan xalqlar yaşasalar da, onların qeyd olunan əraziyə gəlmə olduqları fikri elmi ədəbiyyatda üstünlük təşkil edir (6, s.118). Hett mədəniy-

yətinin bir sıra hallarda Mitanni mədəniyyəti ilə oxşar olması fikri də mövcuddur (3,s.122-123). Kiçik Asiya ərazisində hatlar, hetlər, hurrilər Purushanda, Amkuva, Kussara, Kaniş, Vaxşuşana, Samuxa və b. şəhərlərdə güclü müdafiə tikililəri inşa etmişdilər. Xüsusilə Hattuşa şəhəri özünün bir neçə içqaladan ibarət güclü müdafiə qalaları ilə fərqlənirdi. Memarlar inşa prosesində bir neçə qülləsi və müdafiə divarları olan müdafiə tikililərinin inşa olunduqları yerin təbii-coğrafi xüsusiyyətlərini nəzərə alırdılar. Şəhər qapıları iki əsas qüllə arasında yerləşdirilir, əvvəldən tələ xarakteri daşıyan qurğular tikilmirdi. Müdafiə divarlarının inşası zamanı müxtəlif xarakterli binaların mövqeyi də nəzərə alınırdı. İstər müdafiə tikililərinin, istərsə də yaşayış yerləri, məbədlərin tikilişi zamanı hett arxitekturası özünün sadəliyi və dəqiqliyi ilə fərqlənirdi. Divarların iri daşlardan tikilməsi, onların üzərindən hamar mala çəkilməsi, bir çox yerlərdə "divar gözətçiləri" və "otrostatların" (üfüqi qoyulmuş, üzərində təsvirlər olan plitələr) qoyulması e.ə.II minillikdə Kiçik Asiyada aparıcı mövqeyə malik hett arxitekturasının xarakterik cəhətlərindən hesab olunur.

Hett incəsənəti yerli xüsusiyyətlər nəzərə alınaraq iki əsas hissəyə ayrılırdı. Əsasən e.ə.XVIII-XVII əsrləri əhatə edən Hattuşa, Yazılıqaya və b. abidələrin cəmləndiyi Kiçik Asiya abidələri və e.ə.XII-VIII əsrlərə aid olan Samal, Karxemiş və b. abidələri ilə təmsil olunan Şimali Suriya hett incəsənəti nümunələri bir-birindən ayrılırdı (10,s.32). Şimali Suriya hett şəhərlərinin əsas xüsusiyyəti ellipis və ya dairəvi plana malik olması, daxildən qala divarları ilə bölünməsi və bu yolla şəhərin müdafiə qabiliyyətinin artırılması hesab olunurdu. Ön Asiya arxitekturasında ilk dəfə siklopik düzülüş üsulundan e.ə. II minillikdə istifadə olunması hett mədəniyyətinin fərqli cəhəti kimi götürülürdü (4,s.59).

Tükiyədə Boğazgöy arxivindən tapılan hett sənədlərində mütəmadi şəkildə aparılan siyahıya alınmalar, dövlət torpaqlarında vəziyyətin dəqiqləşdirilməsi, dövlət torpaq fondunun və hökmdar inzibati-bürokratik aparatının mövqeyinin dəyişdirilməsi Hett cəmiyyətinin sosial-iqtisadi tarixinin öyrənilməsi ilə yanaşı hetlərin tarixi coğrafiyası haqqında da ətraflı məlumat verirdi. Belə ki, HT,2 mətnində yüzdən artıq coğrafi məntəqənin adı qeyd olunsa da, onlardan yalnız 11-i ölkənin inzibati mərkəzi hesab olunurdu. Qalan yaşayış məntəqələri adətən inzibati mərkəzin ətrafında cəmlənirdilər. Bu yaşayış məntəqələrinin (Katara, Taxurpa, Ankuba və b.) adları digər mənbələrdə qeyd olunur. Müəyyən çətinliklərə baxmayaraq, həmin yaşayış məntəqələrinin Hattuşadan cənub və cənub-şərqdə yerləşdikləri güman edilir (5,s.123). HT,2 mətninə əsasən, iri mərkəz şəhərlər olan Katara ətrafında 18, Kartapaxa ətrafında 12 yaşayış məskəni cəmlənirdi. Coğrafi məskənlərin dəqiq lokallaşdırılması hett coğrafiyasının ən mürəkkəb problemlərindən sayılır. HT,2 mətninə əsasən, URU və halzi terminlərinin mənasını açıqlamaq mümkün olmuşdur. URU– şəhər, yaşayış məskəni, ərazi, halzi – bir neçə yaşayış məskəninin cəmi mənasını ifadə edirdi. Halzi termini qədim akkad sözü halsi (qala)dan yaranaraq bəzi hallarda hett mətnlərində qala mənasını da bildirirdi: nu tapar-na-an-da-an UDU a-pi-e-da-ni A-NA hal-zi me-na-ah-ha-an-da pi-e-en-ni-ia-an-zi (onlar qoyunu o qalaya doğru qovurdular); (69) .... nu-ua-za zi-ik .... hal-zi-in ku-in .... SA 1- EN hal-zi LUGAL-us ( Hatt., III) (- Böyük hökmdar! Mən yalnız bir qalanın hökmdarıyam, sənin mənə qoyduğun o bir qalanın"(5, s.214).

Qeyd olunan mətn Hett hökmdarı III Hattuşili (1,s.345-346) hələ Xapkis, Nerkis və Samux hakimi olduğu dövrə aiddir. Hetlərin "böyük hökmdarı" Urki-Tesuba siyasi fəaliyyətinə görə onu bu şəhərlərdən məhrum edir və yalnız Hattuşilinin yaşadığı şəhər onun ixtiyarına verilir. Məhz həmin şəhər mətnlərdə halzi – qala adlandılırdı (5,s.224 ). Güman ki, qala (halzi) dedikdə güclü möhkəmləndirilmiş şəhər divarlarına malik yaşayış məskəni nəzərdə tutulurdu. Qalanın adı bir neçə yaşayış məntəqəsini birləşdirən

(bunlar möhkəmləndirilməyən adi şəhərlər – URU idilər) rayona da verilirdi. Belə olduqda halzi şumerlərə məxsus URU BAD-un (möhkəmləndirilmiş şəhər) hett oxunuşu da hesab oluna bilər. Müəyyən bir rayonda yerləşən qalaya (halzi) əsasən bütöv rayonun adlandırılması o zaman baş verirdi ki, inzibati mərkəz hesab olunan qalaya müxtəlif yaşayış məntəqələri üzərində "dövlət hakimiyyəti", yəni ali hakimiyyət hüququ verilirdi. Arinna, Sananta, Haruanda və Hattena kimi şəhərlər "halzi" termini ilə qeyd olunurdu.

Qədim Anadolu ərazisində şəhərlərlə bağlı xüsusi bir mərasim mövcud idi. Həmin mərasimdə "hökmdar bayramları" vaxtı bir çox "təmizlənmə" proseslərindən keçən hökmdar xüsusi bir mərasim yerinə yetirməli olurdu. Antaxşum və nuntaziyasxa adlanan bu bayramlar zamanı ildə iki dəfə (yaz və payızda) hökmdar və onun həyat yoldaşı Hett dövlətinin əsas, möhkəmləndirilmiş dini mərkəzlərini xüsusi yük və cəng arabalarında ziyarət edirdilər. Əsas şəhərlərə yürüş təşkil olunması bütün şahlığın ərazisinin ziyarət olunması demək idi və simvolik xarakter daşıyırdı. Hökmdarın müəyyən etdiyi sərhəddə əsasən ölkə ərazisi sakral (dini) xarakter alır və yer kürəsinin ritual təsviri kimi qəbul olunurdu. Hökmdar dünyanı təmsil edən ölkəni gəzməklə öz "bədəni"ni günəş kimi qəbul edir və kosmik qüvvələrin hərəkətini, yeni mövsümün başlanmasını canlandırırdı. Ölkəni "gəzmək" hökmdarın bu torpaqlara olan hüququnun təsdiqi kimi qəbul edilirdi (2, s.157-159).

Hatlar, sonra isə hetlərin tikinti işlərinə xüsusi diqqət verməsini Boğazgöy, Yazılıqaya, Alacahuyuq, Kültəpə, Əlişir və digər yaşayış yerlərində aparılan tədqiqat işləri də təsdiq edirdi. Hett arxitektura və tikinti sənəti qədim dövlətlərin ərazisində yayılmış və Yunanıstana qədər böyük bir ərazidə yaşayan xalqlara mədəni təsir etmişdir. Assurlara məxsus bit-hilani termini məhz hetlərdən əxz olunmuşdur (8,s. 67). Hett yazılı mətnlərinə əsasən, əhalinin tikinti işlərinə böyük maraq göstərməsi təsdiqlənir. Belə ki, Anitta mətnində şəhərlərdə müdafiə xarakteri daşıyan tikililər barədə məlumat verilirdi. Hetlər hər bir tikintiyə xüsusi hazırlaşırdılar. Tikinti materialları gətirilir, işin görülməsi üçün işçi qüvvəsi tam həcmdə müəyyən olunur, tikinti ilə bağlı bütün işlər əvvəldən dəqiqləşdirilirdi. Bütün tikinti işləri - qalalar, şəhər divarları və s. əsasının qoyulması, tikintinin açılması xüsusi mərasimlərlə müşayət olunurdu. Hetlərin fikrincə, hər bir ciddi və əhəmiyyətli fəaliyyət yalnız allahların köməyilə həyata keçirilməli idi (8, s.69).

Hett mədəniyyətinin məhv edilməsi ilə Kiçik Asiya ərazisində təxminən 300-400 il ictimai reqress prosesi müşahidə olunmuşdur. E.ə.VIII əsrdən Egey dənizi sahillərində yunan qəbilə birləşmələrinin peyda olması ilə Anadolu ərazisində Frigiya, Kariya, Lidiya, İoniya ittifaqları yaranır və Anadolu ərazisinin yunanlaşması baş verir. Bizim eranın əvvəllərində Kiçik Asiya ərazisi əvvəl Roma, sonra isə Bizans mədəni dairəsinə daxil olur. X-XI əsrlərdən bu torpaqlar səlcuq türklərinin, bir neçə əsr sonra isə osmanlıların hakimiyyəti altına keçir. Bu qədər zəngin inkişaf yolu keçən Kiçzik Asiya torpaqlarında inşa olunan müxtəlif xarakterli tikililər, o cümlədən qalalar həmin mədəniyyətləri özündə əks etdirən əsas mənbə olduqlarına görə onların tarixinin öyrənilməsi böyük maraq doğurur.

Türklərin hərb sistemində xüsusi yer tutan qalalar müdafiə vasitəsi olmaqdan daha çox hücum zamanı istifadə olunan dayaq nöqtəsi kimi qəbul edilirdi. Orta əsrlər tarixində qəsrlər, fortlar, burqların Avropa tarixində tutduğu mövqeni Səlcuq və Osmanlı dövründə inşa və bərpa olunan qalalar, qüllələr və bürclərin tutduğu mövqe ilə müqayisə etmək mümkündür. Türklər xüsusilə Roma və Bizans dövrü müdafiə abidələrini dağıtmır, onların üzərində öz müdafiə qalalarını ucaldırdılar. Bu baxımdan Diyarbəkr, Malatya, Ərzincan, Ərzurum, Kurtalan, Mardin, Kars, Bingöl, Bitlis, Van və s. qalaları

xüsusilə diqqətəlayiqdir. Bərpa olunan qalalar içərisində Bizans imperatoru Yustinian dövründə tikilən qalalar üstünlük təşkil edir.

Anadolu ərazisində səlcuqları qala inşasına vadar edən iki əsas səbəb var idi: 1) Xaç yürüşləri; 2) Türk bəylikləri arasında gedən ara müharibələri (9, s.6). Bu səbəbdən Anadolunun müxtəlif yerlərində qalalar, qəsrlər inşa olunurdu. Anadolu qalaları qalın və yüksək divarlar, müəyyən məsafədən bir qoyulan qüllələrdən ibarət olan mürəkkəb sistemə malik idi. Qüllələr hər 50 m-dən bir yerləşdirilməklə onların gözlə görünən məsafədə yerləşməsi, həm də müəyyən ərazini atəş altında saxlamaları əsas şərtlərdən hesab olunurdu. Qüllələr divarlar üzərində dörd hissəli və ya dairəvi inşa olunurdu.

Üzəri düz formada olan müdafiə divarlarında qoyulan "gözətçi məntəqələri"ndən qala meydanına daş nərdivanlar düşürdü. O, həm də əsas qüllələrlə əlaqələnirdi. Qala müdafiəçilərinin toplandığı, təlim proseslərinin keçirildiyi qala meydanı ətrafında müxtəlif məqsədlərə xidmət edən ambarlar tikilirdi. Qala divarları ətrafında içi su ilə dolu xəndəklər yerləşirdi. Qala divarlarının əsası suyun səviyyəsi ilə eyni olmadıqda bənd divarları kiçik hissələrə ayrılaraq suyun qarşısını alırdılar.Qayalıq və yüksək yerlərdə tikilən qalalar ətrafında su xəndəkləri qurulmurdu (Manisa, Hoşap qalaları). Bəzi qalalarda isə əsl qala divarları önündə həmin divarlardan bir qədər kiçik daha bir divarın inşasına üstünlük verilirdi (Ərzurum). Divarların üst hissəsi yaxınlığında daşdan Senkendaz (və ya Külühendaz) adlanan, daş, od, ox və s. atıldığı kiçik qüllələr mövcud idi.

Türkiyənin şərqində yerləşən qalalara aid edilən "qala bədəni" ifadəsi qala divarlarının çox qalın və güclü olan alt hissəsi ( baru) deməkdir. "Taxtaqala" (və ya taht-el qala) qala və onun divarlarından kənarda, alt divarlara bitişik qala dibi adlanan əraziyə deyilirdi.

Bürclər və qüllələr kimi qala qapıları da çox mühüm müdafiə vasitəsi idi. Türkiyənin şərq hissəsində inşa olunan qalalarda qapılar əsasən taxtadan hazırlanır, üzərinə dəmir lövhə çəkilirdi. Bəzi qalalarda qapılar müdafiə məqsədilə əyri (dolanbac) yolun arxasında gizli (bağlı) vəziyyətdə olur, qapıya yaxınlaşanlar dörd tərəfdən məhv edilirdi.

Bəzi qala divarlarında müdafiə xəndəkləri üzərində qalxma-enmə körpülər də olurdu. Əsasən orta əsrlərdə inşa olunan bu tip qala körpüləri iki tərəfi zəncirlə bağlanaraq qapının iç tərəfindən makara vasitəsilə hərəkətə gətirilirdi. Adətən əsas qapıdan kənarda yuxarıdan aşağı enən asma qapılar olurdu. Asma qapıları mühafizə etmək üçün qapının hər iki tərəfində qüllə inşa edilməsi Anadolu qalalarının xarakterik cəhəti hesab oluna bilərdi.

Türkiyə tarixində qalaların idarə edilməsi, saxlanılması üçün xərclərin dəqiqləşdirilməsi və s. haqqında bir çox qanunnamələr vardır. Bu baxımdan 1487-ci il tarixli Hüdavəndiyar (Bursa), 1518-ci il tarixli Diyarbəkr, 1528-ci il tarixli Qaramanlı qanunnamələri, 1519-cu il tarixli Sis (Kozan), 1540-cı il tarixli Ərzurum qanunları mövcud olmuşdur (9, s.8-9).

Beləliklə, qədim dövrlərdən Anadolu ərazisində müxtəlif sivilizasiyaların yaratdıqları abidələrin öyrənilməsi və araşdırılması mühüm nəticələr əldə etməyə şərait yaradır. Erkən şəhərlərin yaranmasından güclü mərkəzləşdirilmiş Hett dövlətinin formalaşdığı və inkişaf etdiyi dövrə nəzər yetirsək Anadolu torpaqlarında müdafiə problemlərinin ön planda olduğu diqqəti cəlb edir. Şumer, akkad, assur mədəniyyətinin nailiyyətlərindən bəhrələnən hett mədəniyyəti həm də yerli köklərə malik idi. Yerli və qonşu mədəniyyətlərin qarşılıqlı təsiri nəticəsində hett mədəniyyətinin bir çox sahələri, o cümlədən qala və şəhər inşası zamanı mühüm nailiyyətlər əldə olunmuşdur.

Dəniz xalqlarının miqrasiyası və hücumları Anadolu mədəniyyətlərinin məhvinə səbəb olur və bu regionda keyfiyyətcə yeni bir mədəniyyət formalaşırdı. Yunan və Ro-

ma mədəniyyətlərinin varisi kimi çıxış edən Bizans dövründə yenidən Anadoluda qala inşasına xüsusi fikir verilirdi. Yustinian və digər Bizans imperatorları dövründə bərpa və inşa olunan qalalar səlcuqlar və osmanlılar tərəfindən dağıdılmamış, əksinə, qorunub dövrümüzə qədər saxlanılmışdır.Türklər qalaların qorunub saxlanılmasında yeni nailiyyətlər əldə edir, hətta qalaların təmin edilməsi və qorunması qanunlar və qanunvericilik aktları ilə rəsmiləşdirilirdi. Bu baxımdan müasir Türkiyə ərazisi, xüsusilə də onun şərqində yerləşən qalaların tarixinin öyrənilməsi son dərəcə aktualdır.

### *ƏDƏBIYYAT:*

1.Авдиев В.И. История Древнего Востока. М., 1953
2.Ардзинба В.Г. Ритуалы и мифы древней Анатолии. М., 1982
3.Васильев Л.С. История Востока. Ч.1. М., 2001
4.Всеобщая история искусства. Т.1. Искусство Древнего мира. М., 1956
5.Гиоргадзе Г.Г. Хеттские списки женщин// Древняя Анатолия. М.,1985
6.История Древнего Востока. Зарождение древнейших обществ и первые очаги рабовладельческой цивилизации. Ч.2.М.,1988
7.Мелларт Дж. Древнейшие цивилизации Ближнего Востока. М., 1982
8.Менабде Э.А. Хеттское общество. Экономика, собственность, семья и наследование. Тбилиси, 1965
9.Nazmi Sevgen. Anadolu kaleleri. I.Cılt. Ankara, 1959
10.Торопцев А.П. Мировая история крепостей и замков. М., 2008
11.Xıdırov C. Şərqin tarixi abidələri. B., 2004

**АЙТАН МЕХТИЕВА**
***кандидат исторических наук, доцент***

### ВОСТОЧНЫЕ КРЕПОСТИ ТУРЦИИ

Если обратить внимание на период развития Хеттского государства начиная с возникновения ранних городов на территории Турции, то можно увидеть, что проблема обороны на территории Анатолии всегда стояла на первом плане.

Хеттская культура, включающая в себя элементы цивилизаций Междуречья, также имела местные корни.

Как наследника античной культуры в Византийский период, в Анатолии уделялось особое внимание на строительство крепостей. Крепости, построенные византийскими императорами, например, Юстиниан и др., не были уничтожены турками, а наоборот, дошли до наших дней.

**AYTAN MEHDIYEVA**
**cand.of Hist.Sciencies, docent**

### THE EASTERN FORTRESSES OF TURKEY

Paying attention to the development period of Hittite State beginning from the formation of the ancient cities on the territory of Turkey, we can see the defence problems always standing in first line on Anatolia territories. The Hittite culture profitid by the Mesopotamian civilizations at the same time had the local roots.

There was paid the special attention to the fortress construction in Anatolia during the Vizantium period performing as the heir of Antique civilization. The fortresses constructed by the Vizantium governors such as Yustinian and etc, weren`t destroyed by the turk quite the reverse they were protected up to-day.

***Rəyçilər: t.e.d.İ.M.Məmmədov, t.e.d.Q.Ə.Əliyev.***
***Azərbaycan Beynəlxalq Universiteti «Ümumi tarix» kafedrasının 26 noyabr 2009-cu il tarixli iclasının qərarı lə çapa məsləhət görülmüşdür (protokol №03).***